*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

**HƏŞMOVA AYNURƏ ABDULLA qızı**
*AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Qafqaz Albaniyası Memarlıq Abidələri və mənəvi İrsinin tədqiqi sektorunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*
*aynura.hashimova@mail.ru*

# QAFQAZ ALBANİYASINA MƏXSUS XRİSTİAN ABİDƏLƏRİNDƏ BARELYEF ƏNƏNƏSİ

**Açar sözlər:**
Azərbaycan, Qafqaz Albaniyası, barelyef ənənəsi, Ay məbədi, ilahə Selena, Ay ilahəsi məbədi , atəşpərəstlik, dini məbədlər, büdpərəstlik, xristianlıq, xristian kilsələri.

**Ключевые слова:**
Азербайджан, Кавказская Албания, барельефная традиция, Храм Луны, Богиня Селена, Храм Богини Луны, поклонение огню, религиозные храмы, язычество, христианство, христианские церкви.

**Key words:**
Azerbaijan, Caucasian Albania, bas-relief tradition, Temple of the Moon, Goddess Selena, Temple of the Moon Goddess, fire worship, religious temples, paganism, Christianity, Christian churches.

**Xülasə**

Qafqaz Albaniyası, Azərbaycan torpaqlarında mövcud olmuş tarixi və qüdrətli dövlət kimi, Azərbaycan xalqının qədim tarixi keçmişidir. Qafqaz Albaniyasına məxsus kilsələr əsasən Azərbaycan ərazisində və Azərbaycanın qədim tarixi torpaqları sayılan, hazırda qonşu respublikaların tərkibində olan ərazilərdə yerləşir.

Məlum olduğu kimi Qafqaz Albaniyasında xristianlıq sonralar qəbul edilərək, məbədlərdəki barelyeflərində xristian nişanələri əksini tapmışdır. Qafqaz Albaniyasının qədim məbədlərindən tapılan barelyeflər, arxeoloji qazıntılar zamanı aşkarlanan daş kitabələr və bir sıra tapıntılar əsnasında araşdılaraq kəşf edilən yeni məlumatlar, qədim Qafqaz Albaniyası dövrünün tədqiqatına kömək edir.

## Giriş

Barelyef ənənəsi Qafqaz Albaniyası dövrünün memarlığında və dekorativ tətbiqi sənətində geniş yayılmaqla, bəzək növü olaraq istifadə edilirdi. Bəzək vasitəsi olaraq daş lövhələrdə, memarlıq abidələri üzərində və digər sənət nümunələrində istifadə olunur. Qafqaz Albaniyasına məxsus memarlıq abidələri üzərində daş

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426
lövhələr, divar təsvirləri ilə yanaşı, eləcə də Qafqaz Albaniyası dövrünə məxsus olan oyma üslubu ilə daş üzərində yonulmuş barelyefləri göstərmək olar.

Strabon qədim albanların dini haqqında məlumatlar verib. Bu məlumatlar əsasında tarixin elmi araşdırmalarında mühüm işlər görülüb. Qədim elm xadimlərinin, taixçilərin, filosofların və siyasətçilərin qeydləri əsasında tarixin bir çox qaranlıq qatlarına işıq salınıb. Tarixdə iz qoymuş, vaxtı ilə əfsanəvi tarix sayılan bəzi hadisələr arxeoloji axtarışlar yolu ilə əsaslandırılmışdır . Bu cür araşdırmalar nəticəsində bəzən elm xadimlərinin cəmiyyətə maraqlı açıqlamaları olurdu. Elmi açıqlamalr bəşəriyyət tarixi üçün bir yenilik olaraq, cəmiyyət üçün həyata baxış nöqtəsini də dəyişməyə qadir olurdu. Elmi yenilik, elmi kəşfin başlanğıcına çevrilirdi. Bu cür araşdırmalardan biri də XIX –cu əsrdə şumer svilizasiyasının mövcudluğunun təsdiq edilməsi olub. Öncələrdə tarixi əsası olmayan əfsanəvi məlumatlar araşdırılaraq, sübutu təsdiq edilərək cəmiyyətə təqdim olunub. Bəzən unudulmuş tarixi hadisələr də var ki, onlar qədim kitabların məlumatlarında qeyd edilərək, sonradan arxeoloji tədqiqatlar zamanında aşkarlanaraq gündəmə gətirilir. Bəzən də bir tarixi hadisənin sübutu olmadan, müəyyən bir əfsanəvi məlumatlar əsasında və ya xalq deyimləri vasitəsilə, nəsildən-nəsilə ötürülərək, el arasında yayılaraq, folklorda, xalq ədəbiyyatında işıqlanaraq yer alınır. İllər sonra bu məlumatları tədqiqatçılar araşdırdıqda, axtarışlar onları hər hansısa bir mağaraya və ya müəyyən bir diyarda aparılan qazıntılar zamanında yeni tapılmış daş kitabələrə, işarəli əşyalara aparıb çıxardır. Həmin tapılan qədim əşyaların öyrənilməsi əsasında, qaranlıq qalan tarix işıq üzü görür və tarixə bir yenilik gətirilir. Bu cür məlumatlardan biri də Strabonun alban tarixi haqqındna yazdığı qeydləri, fikirləridir.

Alimlərin və arxeoloqların araşdırmaları zamanı, qədim alban abidələri üzərində olan barelyeflərin tədiqatı və təhlili bir çox fikirlərə aydınlıq gətirmişdir. https://az.wikipedia.org/wiki/Ki%C5%9F_kils%C9%99si - cite_note-18Arxeoloji qazıntılar zamanı tapılan daş kitabələrin və ya barelyefli daş lövhələrin, qədim məbədlərin üzərində olan daş barelyeflərin tədqiqatı zamanı aşkarlanan yeni məlumatlar qədim Qafqaz Albaniyası dövrünü araşdırmaqda yardımçı olur. ( Şəkil 5)

Alban dövrünə aid müxtəlif daşişləmə sənəti nümunələri tapılmışdır. Bunlardan biri Mingəçevir kilsə kompleksi ərazisində arxeoloji qazıntılar zamanı aşkarlanmışdır. Daşın üzərində tovuz quşları, müqəddəs xaç təsviri və alban yazısı var. Bəzi tədqiqatçılara görə, bu daş xaç altlığı, bəzilərinə görə isə qurbangah olmuşdur. ( Şəkil 7. )

Əsasən Qafqaz Albaniyasına məxsus abidələrdə barelyef ənənəsindən bəhs olunarkən, fikir Azərbaycanın Kəlbəcər rayonu ərazisində yerləşən Gəncəsar kilsəsinə yönəlir. Azərbaycanlıların qədim əcdadları olan qafqaz albanları dövründə inşa olunan bu məbədin aranilər sülaləsinin hakimiyyəti dövründə tikildiyi qeyd edilir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

44 günlük ikinci Vətən müharibəsində prezidentimiz İlham Əliyevin başçılığı, vətənimizin cəsur əsgələrinin şücaəti ilə torpaqlarımız işğaldan azad olundu. Eyni zamanda ali baş komandanımız İlham Əliyevin uzaqgörən siyasəti ilə siyasi arenada da, Azərbaycan dövlətinin qədim tarixini və ərazi bütövlüyünü bütün dünya miqyasında tanıtmağa və təbliğ etməyə davam edirik.

Kəlbəcər rayonunun və digər bölgələrimizin, Dalıq Qarabağın işğaldan azad edilməsi ilə qədim tariximizin bir hissəsi olan Qafqaz Alban Məbədlərimizi də düşmən tapdağından geri qaytarmış olduq. Qafqaz Albaniyasına məxsus olan Gəncəsar məbədi də digər məbədlərimiz kimi düşmən tərəfindən istismara məruz qalaraq, adının, tikiliş üslubiyyətinin, mənsubiyyətinin belə dəyişdirilmə cəhdlərinə baxmayaraq, yenidən xalqımıza, vətənimizə qaytarılması olduqca qürur verici bir hadisə olub.

Gəncəsar məbədi 1216- 1238 – ci ildə inşa olunub, on üçüncü əsrə aid olan bir tikilidir. Məbədin inşa edildiyi ərazi təbiət şəraitləri baxımından da rahat bir məkanda düşünülərək yerləşdirilib. Bu məbəd qoruyucu qala divarları ilə əhatə edilib. Qala divarlarının iki çıxışı var. Gəncəsar məbədi qeydlərə əsasən dəfələrlə möhkəmləndirilərək inşa edilmişdir. ( 7. s. 3-18)

Qədim əlyazmalardakı qeydlərə əsasən Gəncəsar monastrında dəfələrlə 1550-ci, 1645-ci və 1790-cı illərdə bərpa işləri aparılmışdır. Sonuncu dəfə 1907-ci ildə məbəd əsaslı surətdə dəyişikliyə məruz qalmışdır. Belə ki, bu dəyişikliklər zamanında məbəd üzərində olan bəzək heykəltaraşlıq nümünələri və tikili daş üzərində olan yazılar silinmişdir (7.s.3 )

Qafqaz Albaniyasına məxsus məbədlərimizdən bir çox lazımlı məlumatlar almaq mümkün olmamışdır. Bütün bu təsirlərə baxmayaraq milli tədqiqatçılarımız, arxeoloqlarımız, alimlərimiz tərəfindən qədim abidələrimizin tarixi araşdırılmaqda davam edir. Gəncəsar məbədi üzərində barelyef nümunələri olan fotolar təqdim edilir ( Şəkil 5,6,7)

Kəlbəcərdə yerləşən Xudavəng monastır kompleksi Qafqaz Albaniyası dövrünə aiddir. Əfsuslar olsun ki, bu qədim abidəmiz də düşmən tərəfindən zəbt olunduğu dövrlərdə monastr üzərində olan qədim alban yazıları silinmişdir. Monastıra düşmən tərəfindən maddi və mənəvi ziyan vurularaq, oradan dəyərli qədim əşyalar oğurlanmışdır. 2020-ci ildə torpaqlarımızı zəbt edən düşmənlər üzərində 44 gün ərzində qələbə qazanan Azərbaycan ordusu, düşmən qəsbkarlarına Kəlbəcər rayonunu döyüşsüz şəkildə tərk etmələrinə məcbur etmişdir. Onlara verilmiş möhlətdən sui-istifadə edən düşmənlər kilsə ətrafında qeyri-qanuni məkrli çirkin əməllər ediblər. Belə ki Arzu xatun kilsəsinin şərq divarındakı freskaların bir hissəsini xüsusi üsullarla xaricdən dəvət etdikləri mütəxəssislərin köməyi ilə kəsərək Ermənistana aparmaqla alban mədəni irsinə böyük zərbə vurublar. Bununla yanaşı təbiətə də ziyan vuran bədxah düşmənlər Azərbaycan torpağında bitən ağaclara, yaşıllığa, təbiətdə yaşayan canlıları da məhv etməkdən çəkinməyiblər. Bütün bunlara

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

baxmayaraq Xudavəng monastır kompleksinin xarici və daxili görünüşünə ziyan vurulsa da, xalqımızın milli sərvəti olaraq, igid əsgərlərimizin şücaəti sayəsində, düşmən tapdağından azad edilərək, vətənimizə qaytarılmışdır. Qədim monastır Alban hakimiyyəti dövründə kiçik alban knyazlıqları dağıdıldıqdan sonra müstəqil Xaçın knyazlığına tabe olub. Xudavəng monastır kompleksində Arzu xatun kilsəsi var və bu kilsə üzərində divarda kilsənin əsasının qoyulması və sifarişçisi haqqında məlumat yazılıb. Bu daş kitabə kilsənin cənub fasadında yerləşdirilib. (6), (şəkil 8,9 )

Moisey Kalankaluklunun məlumatlarına əsasən Alban hökmdarı Cavanşirin tikdirdiyi məbədlər öz gözəlliyi ilə əsrarəngsiz olaraq bər-bəzəyi, divar təsvirləri ilə fərqlənirdi və günbəzindən qapısına qədər ipək parçalarla bəzədilmişdi. Buradan da Qafqaz Albaniyası dövlətinin mövcud olduğu dövrlərində yaradılmış alban məbədlərinin yüksək ustalıqla ərsəyə gətirilməsi aydın olur. Hazırkı vəziyyətdə, qədim Alban məbədlərində fasad bəzəklərini araşdırdıqda, onlar sırasında, bizim dövrümüzə qədər az bir qısımdə olaraq gəlib çatan, divar üzərində olan barelyeflərlə yanaşı, qapı-pəncərə kənarlarının, məbədin günbəzlərinin daxili və xarıcı çıxıntılı, relyefli işləməlǝlri tədqiqat obyekti olaraq diqqətimizdədir. Bu cür məbəd fasadının bəzək işləmələrini Arzu-xatun məbədində görmək mümkündür. Məbəd üzərində ikili yarım sütunlar var və bu sütünlar arasında barelyef nümunələri yerləşdirilib. (8, Səh.172-173), ( Şəkil 10)

Arzu-xatun məbədinin üzərində daş barelyeflərə diqqət etdikdə süjet xəttini görmək mümkün olur. Əlində kilsə qaldıran kişi barelyefinə diqqət etdikdə mənası xristian dininin ali yüksəkliyə qaldırılması kimi tərənnüm edilir. Barelyefdə təsvir olunan insan fiquru İsanın din qardaşı Yakov tərəfindən xristianlığl təbliğ etmək üçün Qafqaz Albaniyasına göndərilmiş Yeliseyi xatırladır. İnsan fiqurunun əlində kilsə təsviri isə, Yakovun Qafqaz Albaniyasında kilsələr tikilərək xristianlığı yayması fikirinə bənzəyir. Bu barelyeflə yanaşı, arakəsmə sütünun digər istiqamətində divar üzərində yerləşən barelyef bəzək nümunəsinə diqqət yetirdikdə, orada dördkünc forma üzərində dəyirmi barelyef müşahidə edilir və daha sonra yuxarı hissədə üçbucaqlı həndəsi forma yerləşdirilib. Hər üç forma üzərində naxışlar təsvir edilib. Dəyirmi barelyefə diqqət yetirdikdə, ortada günəşin simvolunu görmək mümkün olur.( şəkil 10)

Əfsuslar olsun ki, bu cür məbədlərin bir çoxunda daxili və xarici interyerində, eksteryerində, fasad üzərində olan daş barelyef işləmələri bizim dövrlərə qədər demək olar ki qorunub saxlanmayıb. Bu cür barelyeflərin bir qismi əsrlərlə təbii fəlakətlər, hava iqliminin təsiri zəminində dağılıb və digər qisimi isə qədim torpaqlarımızda özlərinə yuva salmış, mənfur düşmənlər tərəfindən xəyanətkarcasına, gizli şəkildə tariximizi özəlləşdirmək məqsədi ilə dağıdılıb. Oradakı qafqaz albanlarına məxsus olan yazıların, işarələrin izlərini silmişdilər. Bir qisim barelyef nümunələri günümüzə qədər gəlib çatdığından, təqdim olan məqalədə bu mövzuda araşdırmalar aparılması məqsədəuyğun görülmüşdür.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

Beləliklə, məlum olur ki, Qafqaz Albaniyası dövründən qalmiş bir çox abidələrdə barelyef ənənəsinin izləri bizim dövrlərə qədər qorunmamışdır. Barelyef hissələri qorunan abidə alban məbədlərindən bir neçəsinin təhlili təqdim edilmişdir. Bu abidələr Kəlbəcər rayonunun Vəngli kəndində yerləşən Gəncəsar abidəsi, Kəlbəcərdə Xudavəng monastır kompleksi və orada yerləşən Arzu-xatun məbədi, Qazax rayonunun Daş Salahlı kəndi ərazisində Aveydağ silsiləsininin ən yüksək zirvəsində yerləşən Avey məbədi, Şəki şəhərinin Kiş kəndində yerləşən Kiş Alban məbədidir.

Tablo 1




**Şəkil 1. Heydər Əliyev irsi elektron kitabxana portalında, Qafqaz Albaniyası məlumatları bölümündən götürülüb.**

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426



Şəkil 2. «АРХИТЕКТУРА ГАНДЗАРСКОГО МОНАСТЫРЯ» К.Г. Мамедбекова

Tablo 2.



Şəkil 3. «АРХИТЕКТУРА ГАНДЗАРСКОГО МОНАСТЫРЯ» К.Г. Мамедбекова

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426



Şəkil 4. «АРХИТЕКТУРА ГАНДЗАРСКОГО МОНАСТЫРЯ» К.Г. Мамедбеков

Tablo 3.



*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

Şəkil 5. «АРХИТЕКТУРА ГАНДЗАРСКОГО МОНАСТЫРЯ» К.Г. Мамедбекова



Şəkil 6. Üzərində alban yazısı olan daş. Mingəçevir şəhəri. Daşın üzərindəki mətn Jost Gippert tərəfindən oxunmuşdur. ” QAFQAZ ALBANİYASININ MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİ: DAŞ PLASTİKASI “ İmaş HACIYEV)

Tablo 3.



Şəkil 7. Avey məbədi. Qazax bölgəsi. V- VII əsrlər. Məbədin eksteryerində daş üzərində işlənmiş rəmzi və dekorativ elementlər ” QAFQAZ ALBANİYASININ MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİ: DAŞ PLASTİKASI “ İmaş HACIYEV.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426



Şəkil 8. Kəlbəcərdə yerləşən Xudavəng monastrı. Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi veb saytı.

Tablo 4.




Şəkil 9. “ Alban monastırlarının ən gözəl nümunəsi – Xudavəng” N.Alışov.AZƏRTAC.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426



10. Гюльчохра Мамедова. "ЗОДЧЕВСТВО КАВКАЗСКОЙ АЛБАНИИ"

**РЕЛЬЕФНАЯ ТРАДИЦИЯ В ХРИСТИАНСКИХ ПАМЯТНИКАХ, ХАРАКТЕРНЫХ ДЛЯ КАВКАЗСКОЙ АЛБАНИИ.**

**Краткое содержание:**

Кавказская Албания – это прошлое и предки азербайджанского народа как исторического и мощного государства, существовавшего на землях Азербайджана. Церкви, принадлежащие Кавказской Албании, в основном расположены на территории Азербайджана и на территориях, являющихся древними землями Азербайджана и в настоящее время входящих в состав соседних республик. Как известно, христианство в Кавказской Албании было принято позже, христианская символика нашла свое отражение в барельефах храмов. Барельефы, обнаруженные на древних храмах Кавказской Албании, каменные надписи, найденные при археологических раскопках, или новые сведения, обнаруженные при изучении каменных табличек с барельефами, помогают в исследовании периода древней Кавказской Албании.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 426-436*
https://doi.org/10.59849/2224-9257.2024.1.426

## Bas-relief tradition in Christian monuments of Caucasian Albania.

**Summary**

Caucasian Albania is the past and ancestors of the Azerbaijani people as a historical and powerful state that existed in the lands of Azerbaijan. Churches belonging to Caucasian Albania are mainly located in the territory of Azerbaijan and in the territories that are the ancient lands of Azerbaijan and are currently part of the neighboring republics. As it is known, Christianity was adopted later in Caucasian Albania, Christian symbols were reflected in the bas-reliefs in the temples.

Bas-reliefs discovered on ancient temples from Caucasian Albania, stone inscriptions found during archeological excavations, or new information discovered during the study of stone tablets with bas-reliefs help in researching the period of ancient Caucasian Albania.

### Ədəbiyyat:

**1.** Qafqaz Albaniyası
**https://lib.aliyev-heritage.org/az/99680624.html**
**2.** Mədəniyyət. Selena ( Ay) alban məbədinin lokalizəsinə dair. Qafar Cəbiyev. Azərbaycan Respublikasının əməkdar jurnalisti, tarix elmləri doktoru.
https://old.xalqqazeti.com/az/news/culture/63417
3. Dr.Vaqif ƏSƏDOV "QAFQAZ ALBANİYASININ MƏBƏDLƏRİ "
https://www.elibrary.az/docs/JURNAL/jrn2011_847.pdf
4. " QAFQAZ ALBANİYASININ MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİ: DAŞ PLASTİKASI " İmaş HACIYEV.
https://www.elibrary.az/docs/jurnal/jrn2018_286.pdf
5. Kəlbəcərdəki Xudavəng monastrı Azərbaycan xalqının əcdadlarına mənsub olub**.** Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi veb saytı.
https://science.gov.az/az/news/open/15123
6. Natiq Alışov. " Alban monastırlarının ən gözəl nümunəsi – Xudavəng"
https://azertag.az/xeber/Alban_monastirlarinin_en_gozel_numunesi____Xudaveng-2457194
7. К.Г. Мамедбекова. «АРХИТЕКТУРА ГАНДЗАРСКОГО МОНАСТЫРЯ» Nəşr-03.07.1985 s.3-18.
8. Гюльчохра Мамедова. "ЗОДЧЕВСТВО КАВКАЗСКОЙ АЛБАНИИ" 222.

**Rəyçi: professor Qafar Cəbiyev**